# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN-İNDONEZİYA MÜNASİBƏTLƏRİ

**Laura Həbib qızı Zərbəliyeva**
Azərbaycan Dillər Universiteti
laurazarbalieva@yahoo.com

Son dövrlər Azərbaycanın Cənub-Şərqi Asiya ölkələrilə, xüsusilə də İndoneziya ilə münasibətlərində canlanma müşahidə olunur. Azərbaycan və İndoneziya arasında çoxşaxəli əməkdaşlığın genişləndirilməsi istiqamətində müxtəlif təşəbbüslər həyata keçirilir, iki ölkənin potensialından səmərəli şəkildə istifadə olunur.

Azərbaycan və İndoneziya arasında qurulmuş parlamentlərarası əlaqələr, nazirliklər və başqa qurumlarla birbaşa əlaqələr dinamik şəkildə inkişaf edir. İki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığa dair bir sıra sənədlər imzalanmışdır.

Azərbaycan-İndoneziya münasibətləri ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə inkişaf etməyə başlamışdır və hazırda möhkəm əsaslar üzərində, artan templə davam edir.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra dünya ölkələri arasında İndoneziya Azərbaycannın müstəqilliyini tanımış, onunla diplomatik münasibətlər qurmağa başlamış ilk dövlətlərdəndir. O, 28 dekabr 1991-ci il tarixində Azərbaycanın müstəqilliyini tanıdığını bəyan etmiş, 24 sentyabr 1992-ci il tarixində isə Azərbaycan ilə diplomatik münasibətlərin qurulmasına dair sənəd imzalamışdır.

1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan dövlətinin yeni xarici siyasət kursunun istiqamətləri müəyyənləşdirilmişdir. Bu xarici siyasətin əsasında sülh, beynəlxalq hüquq normalarına, ərazi bütövlüyü və toxunulmazlığına hörmət və əməkdaşlıq prinsipləri dayanmışdır. Həmin dövrdə Azərbaycanın xarici əlaqələri ciddi şəkildə möhkəmləndirilmiş və genişləndirilmişdir.

İlk dövrlər – 1992–1998-ci illərdə Azərbaycan və İndoneziya arasında münasibətlər intensiv olmamışdır. 10 fevral 2000-ci il tarixində Heydər Əliyev İndoneziya Respublikasının Azərbaycan Respublikasına ilk səfiri Ceki Cumantara Vahyunun etimadnaməsini qəbul etmişdir.

Səfir C.C.Vahyu ilə görüşdə H.Əliyev İndoneziyanın dünyanın böyük ölkələrindən biri olduğunu, Cənub-Şərqi Asiya bölgəsində çox mühüm rol oynadığını, İndoneziya ilə Azərbaycan arasında diplomatik əlaqələrin yaranmasının və İndoneziyanın Azərbaycana səfirinin təyin olunmasının Azərbaycan üçün çox əhəmiyyətli olduğunu, ölkələrarası əlaqələrin inkişaf etdirilməsi baxımından çox faydalı olacağını bildirmişdir. H.Əliyev İndoneziya ilə müstəqil Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarda eyni prinsiplərdən, eyni mövqelərdən çıxış etdiklərini, beynəlxalq hüquq normalarını əsas tutduqlarını və bir-birini dəstəklədiyini qiymətləndirdiyini, bunun gələcəkdə də belə olacağından əmin olduğunu vurğulamışdır [5].

Bu gün Heydər Əliyev xarici siyasət kursunu Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımış bu iki ölkə arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq çərçivəsində sıx əlaqələr qurulur.

Ötən 30 il ərzində Azərbaycan və İndoneziya arasında ikitərəfli münasibətlər dinamik şəkildə inkişaf etmiş, strateji tərəfdaşlığın yüksək səviyyəsinə çatmışdır. Siyasi-diplomatik, iqtisadi, humanitar və başqa sahələrdə səmərəli birgə əməli fəaliyyət real bəhrəsini verir və coğrafi baxımdan bir-birindən çox uzaqda yerləşən bu iki ölkənin xalqlarını yaxınlaşdırır, dostluq əlaqələrini möhkəmləndirir.

Hazırda Azərbaycanla İndoneziya arasında siyasi-diplomatik münasibətlər çox uğurla inkişaf edir. Onlar beynəlxalq təşkilatlar – Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi təşkilatlar səviyyəsində əməkdaşlıq edərək, hər zaman bir-birini dəstəkləyir. İndoneziya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini həmişə müdafiə etmiş, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünə hörmətlə yanaşmış, 2020-ci ildə Vətən müharibəsi zamanı Azərbaycana siyasi və

mənəvi dəstək vermişdir. Ermənistanın təşəbbüslərinə baxmayaraq, İndoneziya Ermənistanda səfirliyini açmamaqla Azərbaycana münasibətdə öz mövqeyini açıq ifadə edir.

Azərbaycanın strateji mövqeyi və təbii ehtiyatları, xüsusilə enerji resursları İndoneziyanın da diqqət mərkəzindədir. İndoneziya Şərq və Qərb arasında körpü rolunu oynayan Azərbaycanla əlaqələrini daha da inkişaf etdirməkdə maraqlı olduğu kimi, Cənub-Şərqi Asiya regionunun aparıcı ölkələrindən biri olan İndoneziya ilə əlaqələrin inkişafı Azərbaycanın da maraq dairəsindədir. İndoneziya Azərbaycan üçün Cənub-Şərqi Asiya regionunda artıq çox etibarlı strateji tərəfdaşa çevrilmişdir.

Azərbaycan İndoneziya ilə iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir və bu baxımdan iki ölkə arasında müqavilə-hüquq bazasının genişləndirilməsini fəal şəkildə dəstəkləyir [10]. Bu gün iki ölkə arasında iqtisadi-ticarət əlaqələrin dinamikası olduqca yüksəkdir. İqtisadi sahədə münasibətlərin genişlənməsi üçün həm Azərbaycan, həm də İndoneziya böyük potensiala malikdir. Müqavilə-hüquq bazası isə bu potensialın həyata keçirilməsində mühüm rol oynayır.

Həm Azərbaycan, həm də İndoneziya füsünkar təbiətə, tarixi və dini abidələrə, zəngin mədəniyyətə malik olduğundan bu ölkələr arasında turizm sahəsində əməkdaşlığın da böyük perspektivləri vardır.

Azərbaycan və İndoneziya arasında təhsil və mədəniyyət sahəsində əməkdaşlıq yüksələn xətt ilə inkişaf edir. Hər iki ölkədə müxtəlif səpkili tədbirlərin keçirilməsi bu ölkələrin xalqları arasında dostluq əlaqələrini daha da möhkəmləndirir. Təhsil və mədəniyyət sahəsində əlaqələrin inkişafında bu ölkələrdəki səfirlikər və Azərbaycan Dillər Universiteti xüsusi rol oynayır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İndoneziya Respublikasının ölkəmizdə fövqaladə və səlahiyyətli səfiri təyin edilmiş Ceki Cumantara Vahyunun etimadnaməsini qəbul edərkən söhbətindən – 10 fevral 2000-ci. "Heydər Əliyev irsi" beynəlxalq elektron kitabxanası. https://lib.aliyev heritage.org/az/2691754.html
2. İkitərəfli münasibətlər. https://jakarta.mfa.gov.az/az/content/3/ikiterefli-mu nasibetler

## HİDROTƏMİZLƏNMİŞ DİZEL YANACAĞININ KEYFİYYƏTİNİN YAXŞILAŞDIRILMASI

[1,2]**Aytən Fazil qızı Tağıyeva,** [1]**Sevil Kamil qızı Əliyeva,** [1]**Sana Kamal qızı Əhməd**
[1]ETN akad. Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu
[2]ayten_tagiyeva97@mail.ru

İnsan şüurlu və şüursuz olaraq ətraf təbii mühitə təsir göstərir və atmosfer havasına neqativ təsirlərin artması ətraf mühitin çirklənməsi kimi ekoloji problemlərə səbəb olur. Avtomobil tullantıları hava, torpaq və suyun keyfiyyətinə geniş təsirə malikdir. Atmosferin çirklənməsi xüsusi xarakter daşıyır ki, bu da biosferin çirklənməsinə gətirib çıxarır [1, 2]. Hazırda atmosferə tullanan zərərli qazların əsas mənbələrindən biri də avtomobil nəqliyyatıdır. Qeyd olunan problemlər ekoloji təmiz və təkrarlana bilən xammal əsasında dizel yanacaqlarının alınması tələbini də qarşıya qoyur [3]. Yerinə yetirilmiş iş bu aktual problemin həllinə yönəlmişdir.

Bildiyimiz kimi, son zamanlar dizel yanacaqlarına olan sərt tələblərdən biri də onun tərkibində aromatik, xüsusən də poliaromatik maddələrin az olmasıdır. Dizel yanacağının aromatiksizləşməsi prosesində 200-350 °C qaynayan ilkin emaı dizel fraksiyası istifadə olunmuşdur. Qeyd olunan dizel fraksiyasının aromatiksizləşmə prosesini aparılmış və nəticədə tərkibində 1 % kütlədən az aromatik karbohidrogen saxlayan dizel fraksiyası nümunələri alınmışdır və xassələri öyrənilmişdir. Aromatiksizləşmiş dizel yanacağının xassələri aşağıdakı cədvəl 1-də göstərilmişdir.